

**İsmayıl İmanzadə,**
*şair-publisist*
*Azərbaycan Yazıçılar Birliyi*
*Mingəçevir bölməsinin sədri*

# SÖZÜN SEVGİSİYLƏ YAŞAYAN ŞAİR

## (RAMİZ İSMAYIL - 70)

Gənclik illərindən indiki günlərimizə qədər kövrək şair qəlbinin közərtisi ilə bənzərsiz poetik dünyasının dolaylarından adlayıb, ömrünün yetmişinci aşırımında da gəncliyə xas olan bir həvəslə yazıb-yaradan istəkli şair dostum Ramiz İsmayıl sözün sevgisiylə yaşayan söz adamıdır. Yetmiş il qabaq cənnət timsallı oğuz elimiz Gədəbəyin Kiçik Qaramurad kəndində dünyaya göz açan şair, dağlardan üzüaşağı uzanan "söz cığırı" ilə addımlaya-addımlıya ədəbi aləmin ən istedadlı, ən qaynar təbli "sakinlərindən" biri olduğunu çeşidli qəzet-jurnallarda dərc olunan şeirləri və nəşr etdirdiyi kitabları ilə ortaya qoyub.

Gədəbəy elimizin Azərbaycan ədəbiyyatına bəxş etdiyi görkəmli söz ustadlarından İlyas Tapdıq, Dəmir Gədəbəyli, Musa Ələkbərli, Məlahət Yusifqızı və Polad Qasımovun zaman-zaman verdikləri xeyir-duaların işığında pərvazlanan şair, illər keçdikcə imzasını tanıtmağa, çoxsaylı oxucuların sevgisini qazanmağa nail olub. Ali məktəbi bitirəndən sonra ömrünün yarıdan çoxunu özünün ikinci ata yurdu hesab etdiyi Mingəçevirdə yaşayıb işləyən, dünyaya göz açan övladlarına vətən sevgisi, ata məhəbbəti bəxş edən Ramiz İsmayıla iş yoldaşları səmimi-vəfalı bir dost, mingəçevirli yazarlar isə istedadlı şair-publisist kimi yüksək dəyər veriblər.

Ramiz müəllim bir neçə il qabaq ailə vəziyyəti ilə əlaqədar paytaxt Bakıya üz tutub, burada yaşasa da, ömrünün ən qaynar çağlarının şahidi olan Mingəçevirdən, burada qoyub getdiyi dost-tanışlarından, istəkli qohum və qələm dostlarından uzaqda olduğunu heç vaxt təsəvvürünə belə gətirməyib. Bir sözlə, bu günün özündə də şairin qəlbi Mingəçevirlə - bir söz adamı kimi dəyər qazandığı məkanla elə qırılmaz tellərlə bağlıdır ki, onu heç əsən küləklər - acı rüzgarlar belə qoparmağa qadir deyil. Bu ülfət-ünsiyyət şairin Bakıya köçüb getdiyi vaxtlarda qələmə aldığı "Bir şair ayrılır Mingəçevirdən" adlı şeirində də özünü büruzə verməkdədir. Əvvəldən axıracan səmimi duyğularla, ayrılıq həsrətiylə səsləşən bu şeirdən bir şair qəlbinin yurd yanğısı, səsi-harayı duyulmaqdadır:

...Duymuşdu eşq adlı bəlanı burda,
Sevmişdi nərgizi, lalanı burda.
Böyütdü bir cüt də balanı burda -
Bir şair ayrılır Mingəçevirdən.

...Hər bağda-bağçada izi qalacaq,
Dostların qəlbində sözü qalacaq.
İlahə adında qızı qalacaq -
Bir şair ayrılır Mingəçevirdən...

Bakıda yaşadığı ilk vaxtlarda Ramiz müəllimin ürəyi Mingəçevirin həsrətiylə sızlasa da,

şükürklər olsun ki, günlər keçdikcə o, paytaxt Bakıya - onun izdihamlı küçələrinə, evlərin - binaların soyuq sifətinə, buradakı çeşidli ədəbi aləmə öyrəşdi, şeirləri ayrı-ayrı mətbuat orqanlına ayaq açdı. Yaradıcılığı söz sərrafları tərəfindən təqdir edildi, oxucularının sayı günbəgün çoxaldı.

Ramiz İsmayılın insanlara nəcib hisslər, lirik duyğular, vətən-yurd sevgisi aşılayan şeirləri kimi, onun nəsr əsərləri də ürəyə yatımlı, dəyərli-gərəklidir. O, bar ağacı kimi məhsuldar, köhnə əkinçi dədələrimiz kimi açıq "söz süfrəsindəki" misralarını hamıyla, özü də heç kəsdən təmənna ummadan bölüşməyə hazır olan sənətkardır. Aşağıda dediyi kimi:

*Ocaqlar gur yansın, köz mənə bəsdir,*
*Bircə cüt mehriban göz mənə bəsdir.*
*Könül sevindirən söz mənə bəsdir -*
*Ürəyim şeir yaz deyir, yazıram...*

İnanıram ki, son yetmiş il ərzində acılı-şirinli ömür yaşayan, istedadlı bir söz adamı kimi şeirdən-şeirə püxtələşərək çoxları üçün əlçatmaz-ünyetməz olan poetik zirvədə dayanan Ramiz müəllim bundan sonra da hamımızı yeni-yeni yaradıcılıq uğurları ilə sevindirəcək, söz mülkünü qələmə aldığı əsərləri ilə zənginləşdirəcəkdir. Elə bu istəklə də şair dostuma könül xoşluğu, övlad sevinci, oxucu sevgisi arzulayıram.

**Yetmiş yaşın mübarək, Ramiz İsmayıl!**